**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**BAKI DÖVLƏT UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**SƏYYAD TOFİQ oğlu MƏCİDOV**

# BEYNƏLXALQ MÜNASİBƏTLƏR SİSTEMİNDƏ TƏCAVÜZ FAKTORU

**5603.01 –"Beynəlxalq hüquq; insan hüquqları"**

**Hüquq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**AVTOREFERATI**

**Bakı – 2018**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Hüquq İnstitutunun "Beynəlxalq münasibətlər və beynəlxalq hüquq"şöbəsində yerinə yetirilmiş, AMEA Hüquq və İnsan Haqları İnstitutunda geniş müzakirə olunaraq əsas müdafiəyə tövsiyə edilmişdir.

**Elmi rəhbərlər:** **hüquq üzrə elmlər doktoru, professor R.F.MƏMMƏDOV**

**tarix üzrə elmlər doktoru, professor H.C.ƏLİBƏYLİ**

**Rəsmi opponentlər:** **hüquq üzrə elmlər doktoru, professor E. Ə. ƏLİYEV**

**hüquq üzrə fəlsəfə doktoru Ə.V.ALLAHVERDİYEV**

**Aparıcı təşkilat:** **Milli Aviasiya Akademiyasının "Hüquqşünaslıq" kafedrası**

Dissertasiya işinin müdafiəsi "___" "__________" 2018-ci il tarixdə saat "_____" Bakı Dövlət Universitetinin nəzdindəki FD.02.013 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ-1148, Bakı şəhəri, akademik Z.Xəlilov küçəsi, 23, Bakı Dövlət Universiteti, I tədris korpusu, 901 saylı auditoriya.

Dissertasiya işi ilə Bakı Dövlət Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat "___" "___________" 2018-ci il tarixdə göndərilmişdir.

**FD.02.013 Dissertasiya Şurasının elmi katibi, hüquq üzrə fəlsəfə doktoru, dosent: Ə.Q.MƏMMƏDOV**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Tədqiqatın aktuallığı.** Müasir beynəlxalq münasibətlərdə baş verən qloballaşma və inteqrasiya prosesləri zamanı sülh və təhlükəsizliyin hərtərəfli təmin olunması, münaqişə və silahlı qarşıdurmaların aradan qaldırılması bəşəriyyəti narahat edən ən əsas problemlərdən biri kimi çıxış edir. Hazırki dövlətlərarası sistemin mahiyyəti və sistemdaxili əlaqələrin mövcud hüquqi təminat mexanizmləri sülh və təhlükəsizlik baxımından vəziyyətin müsbət meylli olmamasını sübut edir. Bunu bir sıra köklü səbəblərlə izah etmək olar. Birincisi, hazırda transmilli cinayətlərə qarşı mübarizə müasir beynəlxalq hüququn prioritetlərindən birini təşkil etsə də, bu istiqamətdə dünyada nə universal və regional təşkilatlar çərçivəsində, nə də ayrı-ayrı dövlətlər tərəfindən konkret praktiki addımların atılması qənaətbəxş səviyyədə deyildir. İkincisi, qlobal anlamda bütün bəşəriyyət üçün xüsusi təhlükəli hesab olunan əməllərə müxtəlif "arqumentlərlə" sanki bəraət qazandırılır. Elə bu səbəbdən də, müasir dünyada silahlı münaqişələri doğuran elementlər, dövlətlərarası konfliktlərin yaranmasının başlıca səbəbi olan ərazilərin işğalı, dövlət suverenliyinə və siyasi müstəqilliyə qəsdlər artmaqda davam edir. Belə qəsdlərin mövcudluğu şəraitində isə heç zaman nə insan hüquqları ilə səmərəli mübarizə, nə də demokratiyanın və hazırda beynəlxalq dövriyyədə aktual olan avrointeqrasiya proseslərinin davamlı inkişafı qeyri-mümkündür. Bu gün beynəlxalq sistemdəki mövcud harmoniyanı sarsıdan belə müxtəlif tərkibli cinayət əməlləri ilə daha etibarlı beynəlxalq mübarizə məsələləri xüsusi aktuallıq kəsb etməkdədir. Bu isə beynəlxalq cinayətlərin iyerarxiyasında özünün xarakterinə və təhlükəlilik dərəcəsinə görə yalnız bir və ya bir neçə dövlətin deyil, bütövlükdə bəşəriyyətin təhlükəsizliyinə və ümumi sülhün qorunub saxlanmasına təhlükə yaradan beynəlxalq cinayət olaraq təcavüzün mahiyyətinin müfəssəl araşdırılmasını və onunla mübarizənin hazırki beynəlxalq münasibətlərdə ön planda olmasını xüsusilə zəruri edir.

Problemin beynəlxalq münasibətlər və beynəlxalq hüquq müstəvisində sıx qarşılıqlı əlaqə və asılılıqda nəzərdən keçirilməsinin və tədqiq olunmasının bir necə mühüm səbəbi vardır: 1) Təcavüz aktları faktiki olaraq müasir qlobal geosiyasi məkanda ən çox "siyasiləşmiş" cinayətlərdən biri, həm də birincisidir. 2) Dünyada mövcud siyasi iddialar səbəbindəndir ki, bu günə qədər qeyd olunan əməlin beynəlxalq birlik tərəfindən qəbul olunmuş konkret ümumməcburi müqavilə əsaslı tərifi mövcud deyildir. 3) Təcavüz yeganə cinayət olmuşdur ki, Beynəlxalq Cinayət Məhkəməsinin (BCM) Statutunda onunla bağlı müddəanın qüvvəsi uzun müddət "dondurulmuş" və XX əsrin ortalarından etibarən beynəlxalq və

milli məhkəmələrdə bu cinayətlə əlaqədar demək olar ki, heç bir işə baxılmamışdır. Bu da təbii ki, beynəlxalq münasibətlər sisteminə əhəmiyyətli təsir imkanlarına malik olan supergüclərin birbaşa siyasi maraq və mənafeləri ilə əlaqədardır. Təsadüfi deyildir ki, Nürnberq Tribunalında baş prokuror olmuş R.Cekson ABŞ Dövlət Departamentinə hesabatında yazırdı: "Nə siyasi, nə də iqtisadi situasiya təcavüz cinayətinə bəraət qazandıra bilməz". [1] Bu baxımdan əslində problemin araşdırılmasında beynəlxalq hüquqi, o cümlədən beynəlxalq cinayət elementlərinin faiz nisbətinin nə qədər yüksək olduğunu görmək mümkündür.

Mövzunun aktuallığını şərtləndirən mühüm bir məqam ondan ibarətdir ki, son dövrlərdə baş verən siyasi və hərbi gərginlik, silahlı münaqişə zonalarında kobud və kütləvi insan hüquqları pozuntuları ayrı-ayrı dövlətlərin daxili yurisdiksiyasından çıxaraq beynəlxalq mahiyyətli problemə çevrilmişdir. Son iki əsr ərzində cərəyan edən proseslər isə göstərir ki, dünyada insan hüquq və azadlıqları daha çox o ərazilərdə pozulur ki, orada bir dövlətin digərinə qarşı təcavüz, işğal, müdaxilə, ilhaq və s. kimi hərəkətləri törədilmiş olur. Bu baxımdan hazırda insan hüquqlarının bütün dünyada real təminatı və müdafiəsinə, qaçqın və məcburi köçkünlər probleminin birdəfəlik həllinə nail olmaq üçün təcavüz cinayətinin qarşısının alınması və ona qarşı beynəlxalq mübarizənin gücləndirilməsi daha çox aktuallıq kəsb edir.

Beynəlxalq münasibətlər sistemində təcavüz faktorunun beynəlxalq hüquqi aspektlərinin araşdırılması və mövzunu aktual edən daha bir xüsusiyyət onunla əlaqədardır ki, dövlətlərarası sistemdə təcavüz probleminin köklü həllinə nail olunması, ümumilikdə beynəlxalq cinayət hüququnda müharibə cinayətləri, soyqırım, insanlıq əleyhinə cinayətlər, beynəlxalq humanitar hüquqda "müharibə", "silahlı münaqişə", beynəlxalq təhlükəsizlik hüququnda kütləvi qırğın silahları, sürətlə silahlanma, özünümüdafiə, kollektiv və fərdi təhlükəsizlik problemlərinin də fundamental həlli deməkdir. Qeyd edək ki, iki və daha çox dövlətin iştirakçısı olduğu müharibə və beynəlxalq hərbi münaqişə faktının baş verdiyi hallarda mütləq silahlı gücdən bu və ya digər şəkildə istifadə olunmaqla dövlət ərazisinə və siyasi suverenliyə qəsdin baş verməsi labüddür. Eyni zamanda, təcavüzün qarşısının alınması və bu cinayəti qlobal məkanda qadağan edən imperativ beynəlxalq hüquq normalarının yaradılması, digər beynəlxalq cinayətlərlə daha səmərəli mübarizəyə zəmin yaratmış olur.

---

[1]Marjorie Cohn, Aggressive War: Supreme International Crime, http://www.democraticunderground.com

Azərbaycan Respublikası üçün mövzunun aktuallığını xüsusilə zəruri edən ən başlıca amil isə ondan ibarətdir ki, dövlətimizin ərazi bütövlüyünə, suverenliyinə və siyasi müstəqilliyinə qarşı Ermənistan tərəfindən birbaşa və dolayı silahlı təcavüz törədilmiş və bu cinayət bu gün də davam etməkdədir. Digər tərəfdən, respublikamızın xarici siyasət kursunun əsas vektorlarından birini Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün nəticələrinin aradan qaldırılması təşkil etdiyindən hərbi təcavüz aktı törədən Ermənistanın həm indi, həm də post-konflikt dövründə siyasi və maddi məsuliyyətə, bu əməli törədən şəxslərin isə cinayət məsuliyyətinə cəlb olunması baxımından problemin elmi cəhətdən tədqiqi strateji əhəmiyyət kəsb edir.

Xüsusi qeyd etmək lazımdır ki, dövlətçiliyimizə və ərazi bütövlyümüzə qarşı törədilən silahlı təcavüzlə transmilli mübarizə hələ xalqımızın dahi lideri Heydər Əliyev tərəfindən başlanılmışdır. Bu gərgin, hərtərəfli iş - Ermənistanın bu cinayətə görə beynəlxalq hüquqi məsuliyyətinin reallaşdırılması ilə bağlı strategiya bu gün dövlət başçısı cənab İlham Əliyev tərəfindən güclü siyasi iradə və böyük əzmkarlıqla davam etdirilir. Respublikamızın suverenliyi, ərazi bütövlüyü və siyasi müstəqilliyinə qarşı müasir dövrdə bir sıra qlobal və regional təhlükələrin mövcudluğuna baxmayaraq, Ermənistanın Azərbaycana təcavüzü dövlətçiliyimizin bu günü və gələcəyi, habelə insan hüquq və azadlıqları üçün real xarici təhdidlərdən biri hesab olunur və məsələyə cinayət hüquqi yanaşma zəruri bir tələb kimi ortaya çıxmışdır. Xüsusilə, ölkə Prezidentinin 27 dekabr 2011-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırılması üzrə Milli Fəaliyyət Proqramı"na[2] müvafiq olaraq Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində qaçqın və məcburi köçkün düşmüş şəxslərin hüquqlarının kütləvi şəkildə pozulması, işğal nəticəsində Azərbaycanın təbii, tarixi və mədəni sərvətlərinin dağıdılması faktının dünya ictimaiyyətinə çatdırılması və onlara dəymiş zərərin Ermənistan dövləti tərəfindən ödənilməsi məqsədilə beynəlxalq təşkilatlarda işin davam etdirilməsi üçün təcavüz cinayəti ilə bağlı beynəlxalq hüquqi məsələlərin diqqətdə saxlanılması olduqca zəruridir.

Hazırda tarixi Azərbaycan torpaqları olan Dağlıq Qarabağda (DQ) 1988-ci ildən başlayaraq, beynəlxalq sülh və təhlükəsizlik ciddi şəkildə

---

[2]AzərbaycanRespublikasındainsanhüquqvəazadlıqlarınınmüdafiəsininsəmərəliliyiniartırmaq sahəsindəMilliFəaliyyətProqramınıntəsdiqedilməsihaqqındaAzərbaycanRespublikasıPrezidentininSərəncamı, e-qanun.gov.az/framework/22821

təhlükəyə məruz qaldığından Cənubi Qafqaz dünyanın ən gərgin münaqişə zonalarından birinə çevrilmişdir. Nəticədə bütövlükdə Transxəzərin hərbi-siyasi təhlükəsizliyi və onun karbohidrogen ehtiyatlarının iqtisadi cəhətdən təhlükəsizliyi təhdid altında qalır. Ermənilərin ölkəmizə qarşı əsassız ərazi iddiaları, Qərbi Azərbaycan torpaqları olan indiki Ermənistan ərazisindən qaçqın düşən şəxslər, Dağlıq Qarabağa və ətraf rayonlara bu ölkənin silahlı təcavüzü nəticəsində məcburi köçkün düşən azərbaycanlıların hüquqları ilə bağlı problemlər təcavüzlə əlaqədar meydana gələn və beynəlxalq hüququn bilavasitə tənzimetmə obyektinə daxil olan məsələlərdəndir. Bu baxımdan müasir beynəlxalq münasibətlərdə müstəqil iradə sahibi olan Azərbaycan Respublikasının beynəlxalq hüquqa əsaslanan rəsmi mövqeyini və DQ problemi üzrə danışıqların hələ də davam etməsini nəzərə alaraq, təcavüz faktorunun elmi-tədqiqat mövzusu kimi araşdırılmasını xüsusilə zəruri hesab edirik.

**Problemin işlənmə dərəcəsi.** Dissertasiyanın yazılması zamanı xarici ölkələrin (Rusiya, Türkiyə, ABŞ və s.) müəllifləri ilə yanaşı azərbaycanlı alimlərin əsərlərinə və tədqiqat işlərinə istinad edilmişdir. İşdə xarici ölkə müəlliflərindən B.F.Benjaminin “Can Aggression Be Deterred by Law?” əsərində təcavüzün müəyyən olunma problemini, Nina H.B. Jorgensenin “The responsiblity of states of international crimes” əsərində təcavüzə görə beynəlxalq cinayət məsuliyyəti məsələsini, J. Sorensin“Secession and Self Determination”adlı araşdırmasında sesessiya və özünütəyinetmə prinsipi ilə bağlı problemlərini, P. S. Romaşkinin “Агрессия -тягчайшее преступление против мира и человечества” əsərində təcavüzün cinayət hüquqi elementlərini, N. B. Eliseevanın “Нюрнберге и Токио международная агрессия была признана недопустимой” əsərində beynəlxalq tribunalların hökmlərinə istinadən təcavüzün mahiyyətini,E.İ.Skakunovun “Самооборона в международном праве” kitabında özünümüdafiə və təcavüzün qarşılıqlı əlaqəsi problemini, azərbaycanlı alimlərdən R.F. Məmmədovun “Самоопределение по-армянски, или о том как армянские сепаратисты из Нагорного Карабаха в очередной раз грубо игнорирует международное право” adlı araşdırmasında Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü və özünütəyinetmə ilə bağlı məsələləri, R. K. Məmmədovun “Beynəlxalq cinayət hüququ və Azərbaycan Respublikasının cinayət qanunvericiliyi” kitabında təcavüz cinayəti ilə bağlı milli qanunvericiliyə implementasiya məsələlərini, V.Ə. İbayevin “Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüquq müstəvisində” əsərində Dağlıq Qarabağda baş verən kriminal hadisələrin, o cümlədən təcavüz cinayətinin beynəlxalq

hüquqi elementlərini tədqiq edən araşdırmalara və digər əsərlərə müraciət edilmişdir.

**Tədqiqatın obyektini** beynəlxalq münasibətlər sistemində təcavüz faktoru, **predmetini** isə bu sistemdə təcavüzün siyasi və beynəlxalq hüquqi mahiyyəti, təcavüzün elementləri, forma və növləri, bu əmələ görə beynəlxalq hüquqi məsuliyyətlə bağlı hüquqi məsələlər təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.**Tədqiqatın məqsədi təcavüzlə bağlı BMT-nin, Beynəlxalq Cinayət Məhkəməsinin və regional təşkilatların qəbul etdiyi beynəlxalq hüquqi aktlar və məhkəmə praktikası əsasında təcavüzün müasir geosiyasi və beynəlxalq hüquqi mahiyyətinin qarşılıqlı əlaqəsi və asılılığının, təcavüzün elementlərinin, forma və növləri arasında olan fərqlərin, bu cinayət əməlinə görə beynəlxalq hüquqi məsuliyyətin müəyyən olunması istiqamətində elmi-nəzəri əsasları formalaşdırmaqdan ibarətdir. Qeyd edilən məqsədə nail olunması istiqamətində aşağıdakı **vəzifələr** müəyyən edilmişdir:

- beynəlxalq münasibətlərdə və beynəlxalq hüquqda təcavüzun dövlətlərin hüquqazidd davranışı kimi qadağan olunma prinsipinin meydana gəlmə tarixinin öyrənilməsi;
- təcavüzün anlayışının əsas elementlərinin açılması;
- qloballaşma dönəmində təcavüz aspektindən beynəlxalq təhlükəsizlik məsələlərinin araşdırılması;
- təcavüzə görə dövlətlərin və fərdlərin beynəlxalq hüquq məsuliyyətinin forma və növlərinin tədqiq olunması;
- beynəlxalq hüququn prinsipləri, özünümüdafiə və təcavüz arasında müqayisəli təhlilin aparılması;
- təcavüz faktoruna münasibətdə beynəlxalq təşkilatlar arasında səlahiyyət bölgüsünün aydınlaşdırılması;
-BMT-nin Beynəlxalq Məhkəməsinin təcavüzlə bağlı bəzi presedentlərinin öyrənilməsi;
- Beynəlxalq Cinayət Məhkəməsinin təcavüzə dair yurisdiksiyası ilə bağlı məsələlərin araşdırılması;
- Ermənistanın Azərbaycana qarşı silahlı təcavüz hərəkətlərinin beynəlxalq hüquqi prizmadan qiymətləndirilməsi;
-Beynəlxalq və regional təşkilatların Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü ilə bağlı mövqeyinin beynəlxalq hüquqi təhlili;
- Ermənistanın hərbi təcavüz cinayətinə görə Azərbaycan Respublikasının müasir beynəlxalq hüquqa əsasən özünümüdafiə hüququ ilə bağlı məsələlərin tədqiq olunması.

**Tədqiqatın metodoloji əsasını** ümumnəzəri və sosial-elmi idrak metodları təşkil edir. Dissertasiyada müqayisəli və formal məntiqi metodlardan da geniş istifadə olunmuşdur. Tədqiqatda sistem-struktur, sosioloji, tarixi-siyasi və başqa tədqiqat metodları da tətbiq edilmişdir.

**Tədqiqatın nəzəri əsası.** Dissertasiya işinin yazılmasında tədqiqat işinin mövzusu ilə bağlı araşdırmalar aparmış azərbaycan, türk, rus və digər xarici ölkə alimlərinin: Benjamin B.F., Bassuoni Ç., Bouett D., Nina H.B. Jorgensen, Kittiçaizare K., Kassese A., Tunkin Q.İ., Lukaşuk İ.İ., Kostenko N.İ., Kudryavçev V.N., Biryukov P.N, Vasilenko V.A., Çerniçenko S.V., Ferdros A., Panarin İ.N., Rıbakov Y.M., Skakunov E.İ, Uşakov N.A., Fisenko İ.B., azərbaycanlı alimlərdən Mehdiyev R. Ə., Məmmədov R.F., Əlibəyli H.C., Həsənov Ə., Məmmədzadə İ., Hüseynov L.H., Səməndərov F., Əliyev Ə.İ., Əliyev E.Ə., Məmmədov R.K., Sadıqov Ə.İ., Qarayev R.M., İbayev V.Ə., Səlimov K., Sevdimalıyev R., Qasımlı M., Əhmədov E. habelə, türkiyəli mütəxəsislərdən Celik E.F., Pazarçı H. və başqalarının əsərləri təhlil edilmiş və onlardan istifadə edilmişdir.

Dissertasiyanın yazılmasında həmçinin, elektron ədəbiyyatların, internet saytlarının, eləcə də beynəlxalq və milli kütləvi informasiya vasitələrinin analitik, statistik və informasiya xarakterli materiallarından da istifadə olunmuşdur.

Nəzəri bazanın formalaşmasında ulu öndər Heydər Əliyevin və ölkə Prezidenti cənab İlham Əliyevin məruzə, nitq və müsahibələrində öz əksini tapmış müddəalara ciddi diqqət yetirilmişdir.

**Tədqiqatın normativ əsası** qismində mövcud beynəlxalq müqavilələrdən, BMT çərçivəsində qəbul olunan aktlardan, Beynəlxalq Cinayət Məhkəməsi, beynəlxalq təşkilatlar çərçivəsində qəbul olunanbeynəlxalq hüquqi aktlar və məhkəmə praktikasından istifadə edilmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiyanın yazılmasında ilkin yenilik bundan ibarətdir ki, bu elmi iş müasir qloballlaşma və Avropaya inteqrasiya prosesləri, hebelə Ermənistanın Azərbaycana hərbi təcavüzü nəzərə alınmaqla, təcavüz faktorunun beynəlxalq hüquq nöqteyi-nəzərindən araşdırılması ilə bağlı Azərbaycan hüquq elmində ilk tədqiqatlardan biridir.

Tədqiqat işinin elmi yeniliyini özündə ifadə edən aşağıdakı **yeni elmi müddəalar** müdafiəyə təqdim olunur:

1. Dövlətin ərazi bütövlüyü, siyasi müstəqilliyi və suverenliyinə qarşı yönələn sülh əleyhinə cinayət kimi təcavüzün qlobal səviyyədə imperativliyinin və *erga omnes* xarakterinin tanınması bu cinayətə qarşı beynəlxalq mübarizədə mühüm amil hesab olunmuşdur.

2. “Təcavüz” və “işğal” hərəkətləri beynəlxalq hüquq baxımından biri-birindən fərqləndirilmiş və vurğulanmışdır ki, “işğal” zamanı silahlı gücün tətbiqi “dövlət suverenliyinə qəsd” etmir və müəyyən müddət keçdikdən sonra silahlı qüvvələrin geri çəkilməsi ilə “işğal” bitmiş sayıla bilər, “işğal”ın uzanması isə təcavüz cinayətinin tərkibini yaradır. Beynəlxalq hüquqda “işğal müddətinin” konkret göstərilməsi və 1 (bir) ildən çox olmaması zəruri sayılmışdır. Müddətin bir il olması fikri irəli sürülərkən, presedent kimi BMT Təhlükəsizlik Şurasının Malidəki hərbi əməliyyatlar üzrə 2085 (2012) saylı Qərarı əsas götürülmüşdür.

3. Qloballaşma kontekstində təcavüz cinayəti müəyyən şərtlər daxilində istisna edilir, ərazilərin zəbt edilməsinin, sərhədlərin genişləndirilməsinin tarixi forması təcavüz, müasir forması isə qloballaşma hesab olunur. Təcavüz zamanı zərərçəkən və onu törədən subyekt arasında münasibətlər qeyri-paritetliyə və zorakılığa, qloballaşmada isə inkişafa meylli bərabərliyə, azad iradə ifadəsinə və konsensusa əsaslanır.

4. “Təcavüz” və “silahlı hücum” anlayışları arasında dəqiq elmi bölgü zəruri hesab edilmişdir. Təcavüz sülh və beynəlxalq təhlükəsizlik əleyhinə cinayət, silahlı hücum isə konkret dövlət əleyhinə yönələn akt hesab edilir. Başqa sözlə, təcavüz zamanı beynəlxalq sülh və təhlükəsizlik təhdidə məruz qalırsa, silahlı hücumda yalnız bir dövlətin maraq və mənafeləri təhlükə altında qalır. Silahlı hücumda niyyətin fərqli olması mümkündür, lakin təcavüzdə niyyət sırf cinayətkar səciyyə daşımaqla, dövlətin ərazi bütövlüyü və suverenliyinə qarşı yönəlir. Silahlı hücum o zaman təcavüz sayıla bilər ki, onun həyata keçirilməsində niyyət məhz təcavüzün planlaşdırılmasındakı niyyətlə üst-üstə düşsün. Bu zaman silahlı hücum təcavüzün bir forması kimi çıxış edir.

5. Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü probleminə dair yeni həll modelləri təklif olunmuşdur. Məsələnin həllində cinayət elementlərinin önə çəkilməsi, müasir beynəlxalq cinayət hüququnun, habelə baş verən cinayətə görə cəzanın labüdlüyü prinsipinin tətbiqi növbəti dinc tənzimetmə metodu kimi nəzərdən keçirilmişdir. Problemə dair BMT-nin Beynəlxalq Məhkəməsi tərəfindən məşvərətçi rəyin qəbul edilməsi təcavüz faktının tanınması baxımından əhəmiyyətli hesab olunmuşdur.

6. Təcavüz konkret mürəkkəb cinayətlərin uzanan cinayət növünə aid edilməklə, ona retroaktivlik prinsipinin şamil olunmamasına münasibət bildirilmişdir. Çünki, təcavüz cinayətinin tərkibini yaradan hərəkətlər fasiləsiz olaraq törədilir, cinayətin subyekti hər an onu törətməkdə davam edir və bu, onun təcavüzkar meylləri ilə bağlıdır. Uzanan cinayət kimi təcavüz beynəlxalq hüquqla qadağan olunan hərəkət və ya hərəkətsizliklə

başlayır və bu əməl kriminal vəziyyətə son qoyan hərəkətin edilməsinədək davam edir.

7. Sülh və insanlıq əleyhinə cinayət kimi təcavüzə görə universal yurisdiksiyanın məhdud tətbiqinin zəruriliyi qeyd olunmuşdur. Dövlətin təcavüzdə iştirak faktının təsdiqi fərdin cinayət məsuliyyətinə əsas yaratdığı üçün belə nəticəyə gəlinmişdir ki, BMT Təhlükəsizlik Şurasının dövlətin təcavüzdə iştirak faktını müəyyən etməsindən sonra, bu əməldə təqsirləndirilən şəxslərin universal yurisdiksiya əsasında cəzalandırılması mümkündür.

8. Təcavüz və özünümüdafiə haqqında müddəaların milli qanunvericilik sistemində, o cümlədən Konstitusiyada təsbit olunmamasının bu cinayətlə mübarizənin səmərəliliyinə təsiri qeyd edilmişdir. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində "təcavüzkar müharibə" termini ilə ifadə olunan, sülh və insanlıq əleyhinə cinayətlərə aid edilən "təcavüz"ün BCM-in Statutuna və müasir beynəlxalq hüquq normalarına uyğun olaraq ölkəmizin cinayət qanunvericiliyinə gələcək implementasiyası məqbul hesab edilmişdir.

9. Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünə cavab olaraq Azərbaycan Silahlı Qüvvələri tərəfindən 2016-cı ilin aprelində özünümüdafiə məqsədilə aparılan hərbi əməliyyatların beynəlxalq hüquqa uyğun olması əsaslandırılır, bu zaman tətbiq olunmuş əks tədbirlərin Azərbaycanın özünümüdafiə hüququndan irəli gəldiyi vurğulanır, gələcəkdə bu kontekstdə Azərbaycan üçün xüsusilə kollektiv özünümüdafiənin seçilməsi, habelə problemin məqbul həll variantlarından biri kimi antiterror əməliyyatlarının aparılmasıəhəmiyyətli hesab edilir.

**Tədqiqatın nəzəri və təcrübi əhəmiyyəti** onun üzə çıxardığı elmi yeniliyi ilə bilavastə bağlıdır. Tədqiqat işi, əldə olunan nəticələr və irəli sürülən təkliflər müxtəlif istiqamətlərdə istifadə oluna bilər.

Dissertasiya tədqiqatlarının materialları, müddəaları və qənaətləri beynəlxalq cinayət hüququ, o cümlədən təcavüzə dair beynəlxalq hüquq üzrə elmi-nəzəri araşdırmalar üçün təməl ola bilər.

Tədqiqatın nəticələri təcavüzlə bağlı keçirilən elmi-praktik konfranslarda, seminarlarda və Ermənistanın Azərbaycana qarşı təcavüzü, Dağlıq Qarabağ probleminin həlli prosesində, post-konflikt dövründə erməni təcavüzkarlarının beynəlxalq cinayət məsuliyətinə cəlb olunması zamanı tətbiq edilə bilər.

Dissertasiyanın materiallarından həmçinin, tədris prosesində, beynəlxalq hüquq və beynəlxalq cinayət hüququ üzrə ümumi kursun təcavüz cinayəti ilə bağlı hissəsinin hazırlanmasında istifadə oluna bilər.

**Tədqiqatın nəticələrinin aprobasiyası**. Dissertasiya Azərbaycan Respublikası Milli Elmlər Akademiyasının Hüquq və İnsan Haqları İnstitutunda müzakirə olunmuş və müdafiəyə tövsiyə edilmişdir. Müəlliftədqiqat işi ilə bağlı Azərbaycan Respublikası, Qazaxıstan Respublikası, Rusiya Federasiyası və Türkiyə Respublikasının nüfuzlu elmi jurnallarında məqalələr çap etdirmiş, bir sıra elmi konfrans və seminarlarda çıxışlar etmişdir. Tədqiqatın nəticələrindən müəllif tədris prosesində istifadə etmişdir.

**Tədqiqatın strukturu.** Tədqiqat işi giriş, üç fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

**Girişdə** tədqiqat mövzusunun aktuallığı, problemin işlənib hazırlanması dərəcəsi əsaslandırılır, tədqiqatın məqsəd və vəzifələri, onun metodoloji əsasları müəyyən edilir, işdə verilən müddəaların və nəticələrin praktiki əhəmiyyəti göstərilmişdir.

**"Beynəlxalq münasibətlərdə və beynəlxalq hüquqda təcavüzün anlayışı və mahiyyəti"**adlanan birinci fəsil dörd paraqrafdan ibarətdir.

**"Təcavüzün anlayışı problemi (tarix və müasirlik**)" adlanan **birinci paraqrafda** təcavüzün müasir beynəlxalq hüquq institutu olaraq tarixi və müasir inkişaf tendensiyaları nəzərə alınmaqla bu cinayətin anlayışı ilə bağlı problemlər araşdırılır. Qeyd olunur ki, təcavüz beynəlxalq münasibətlər sisteminə əhəmiyyətli təsir imkanlarına mailk olan hüquqi-siyasi anlayışdır. Yəni bu əməl ikili - cinayət-hüquqi və siyasi təbiəti ilə diqqəti cəlb edir. Onun tərkib elementlərinin araşdırılması üçün problemə kompleks yanaşma tələb olunur. Belə ki, ən səmərəli yol tədqiqatların beynəlxalq hüquq, dövlətdaxili hüquq, beynəlxalq münasibətlər və tarix elmləri kontekstində aparılmasıdır. Burada əsas missiya müasir beynəlxalq hüququn üzərinə düşür. Birincisi ona görə ki, bir çox beynəlxalq hüquqi sənədlərdə artıq bu əməl beynəlxalq cinayət olaraq tanınmışdır. İkincisi, təcavüz beynəlxalq sferada həyata keçirilən, subyektlərini beynəlxalq sistemin aktorları təşkil edən və həmçinin, törədilən hüquq pozuntusuna görə məsuliyyətin birbaşa həmin subyektlərin üzərinə yönəldiyi transmilli, kriminal xarakterli konkret hərəkət və hərəkətsizlikdən ibarət olan cinayət əməlidir.Təcavüz ən təhlükəli beynəlxalq cinayətlərdən biri və hətta birincisi hesab edilir.[3]

---

[3]Бирюков П.Н. Международное право. Учебное пособие, М. Юристь, 2000. с.251

Təcavüzlə bağlı ən mühüm sənəd olan Təcavüzün Tərifi adlı BMT Baş Məclisinin 14 dekabr 1974-cü il 3314 (XXIX) saylı qətnaməsinə istinad olunaraq, təcavüz hərəkətləri beynəlxalq hüquqi nöqteyi-nəzərindən araşdırılır. Sənədə əsasən, "təcavüz bir dövlətin digər dövlətin suverenliyi, ərazi bütövlüyü və ya siyasi müstəqilliyi əleyhinə və ya bu tərifdə müəyyən olunduğu kimi, bu və ya digər şəkildə BMT Nizamnaməsi ilə bir araya sığmayan silahlı güc tətbiq etməsidir". Qeyd olunur ki, bu fikirin təcavüzün anlayışı ilə bağlı sonrakı elmi təşəbbüslərə bilavasitə təsiri olmuş və qeyd olunan müddəa bu cinayətin elmi tərifləri üçün əsas kimi çıxış etmişdir.

Eyni zamandabildirilir ki, təcavüzün, silahlı hücumun və işğal hərəkətlərinin dəqiq hüdudlarının müəyyən olunması, elmi-texniki tərəqqi nöqteyi-nəzərindən dövlətin ərazi bütövlüyü, suverenliyi və siyasi müstəqilliyinə əhəmiyyətli dərəcədə təsir imkanlarına malik olan informasiya müharibəsi və ekoloji kataklizmlərin nəzərə alınması da vacib nüanslardandır. Qeyd olunur ki, Təcavüzün Tərifi haqqında BMT Baş Məclisin 1974-cü il tarixli qətnaməsi müasir beynəlxalq hüquqda imperativ xarakterli *erga omnes* öhdəliklər müəyyən edən akt kimi tanınmalıdır. Müasir beynəlxalq hüquqi inkişaf və təcrübə nəzərə alınaraq, təcavüzün – törədilmə formasından asılı olaraq birbaşa və dolayı təcavüz, məzmunundan asılı olaraq isə iqtisadi, informasiya və ekoloji təcavüz kimi əsas növlər üzrə qruplaşdırılması məqsədəuyğun hesab edilir.

**"Qloballaşma və təcavüz: proqlobalizm və antiqlobalizm aspektindən beynəlxalq təhlükəsizlik məsələləri"** adlı **ikinci paraqrafda** qloballaşma müasir beynəlxalq münasibətlərə və beynəlxalq hüquq qaydasına əhəmiyyətli təsir edə bilən elmi paradiqmalardan biri hesab edilir. Qeyd olunur ki, müasir dünyanın geopolitik mənzərəsi artıq bütövlükdə həm qloballaşma, həm də inteqrasiya proseslərini zəruri amilə çevirmiş, bu zərurət isə proqlobalizm və antiqlobalizm aspektindən müasir beynəlxalq sistemdə yeni qaydalar və təhlükəsizlik modellərinin formalaşmasına səbəb olur.

Bu mənada Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 26 aprel 2010-cu il tarixdə Bakıda dünya dini liderlərinin sammitinin açılış mərasimindəki çıxışında qloballaşma prosesinin mövcud anlamda qəbuluna bəzi düzəlişlərin edilməsi barədə tövsiyələri olduqca zəruri hesab edilir: "Qloballaşma adı altında xalqlara zidd olan, milli menatlitetə xas olmayan dəyərlər aşılanmamalıdır... Elə etməliyik ki, qloballaşmaya qarşı bəzi dairələrdə olan şübhələr ərisin, bu şübhələr aradan götürülsün. Bunu etmək üçün, əlbəttə, bütün dünya birliyi bu məsələ ilə

bağlı yəqin ki, öz fikrini bildirməlidir. Bu anlayışa müəyyən düzəlişlər edilməlidir".[4]

Bu kontekstdə müəllif müasir beynəlxaq münasibətlər sisteminin reallıqları baxımından akademik R.Ə.Mehdiyevin fikirlərinə istinad edir: "Bu gün qloballaşma dedikdə, biz ən ümumi şəkildə nəticə etibarilə sistemin özünü dəyişdirən sosial, iqtisadi, siyasi, mədəni kommunikasıyaların inkişafını başa düşürük".[5]Bildirilir ki, qloballaşan dünyaya Azərbaycan təcavüzkarla birgə inteqrasiya olunur, qloballaşma isə təcavüzə tamamilə ziddir və onunla birgə inkişaf edib, reallaşa bilməz. Ona görə ki, biri inteqrasiyaya silahlı güc vasitəsilə nail olur, digəri isə inteqrasiyanı qarşılıqlı əlaqə və asılılıqda şərtləndirir. Biri milli suverenliyi və ərazi bütövlüyünü separatçı maraq və məqsədlərlə zorlayır, digəri isə milli suverenliyi "bəşəriyyətin ümumi suverenliyinə" qoşmaqla ərazi faktorundan sinergetik bərabərliklə istifadəni nəzərdə tutur. Bu səbəbdən də paraqrafda ərazi bütövlüyü və qloballaşma tandeminə münasibətdə təcavüzün anlayışının tezliklə müəyyənləşməsi zərurətinin ortaya çıxdığıvurğulanır.

Qeyd olunur ki, qloballaşma sadəcə iqtisadi amillərlə bağlı elmi paradiqma olmayıb, daha universal məna yükünə malik olan anlayış kimi nəzərdən keçirilməli, onun müasir qavranma diapazonuna əsasında kapital, investisiyalar, yeni geoiqtisadi məkanlar, milli iqtisadiyyatların inteqrasiyası və tamamlanması kimi iqtisadi amillərlə yanaşı, həm də siyasi, sosial, humanitar amillər, hərbi tarazlıq, güc və qarşılıqlı asılılıq, yeni dövlətlərarası qurumlar və s. daxildir. Bu mənada qloballaşma konkret bir dövlətin təsirindən tam azad olur, onun iradəsindən asılı olmadan təbii axarla müəyyən edilən münasibətlər sistemi kimi formalaşır. Burada dünya yekcinsləşir, bütün iqtisadi, hüquqi, mədəni və siyasi proseslərdə paritetlik tendensiyası hakim olur. Bu həm də, köklü və mahiyyətli dəyişikliklərlə müşayiət olunur, transkontinental və transregional proseslər baş verir. Birqütblü siyasi qlobalizm nəticəsində miqyasına görə qlobal qarşılıqlı asılılıq münasibətləri formalaşır. Bu isə öz növbəsində dövlətlər arasında baş verən silahlı güc tətbiqi ilə müşayiət olunan təcavüz cinayətini tamamilə istisna edir, habelə qarşılıqlı iqtisadi sinergetika siyasi və hərbi stabilliyin, ümumilikdə beynəlxalq təhlükəsizliyin qarantı kimi çıxış edir.

---

[4]Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqləri, çıxışları, müsahibələri və bəyanatları. 2010-cu il, http://files.preslib.az

[5] Mehdiyev R. Azərbaycan qloballaşma dövründə: inkişaf startegiyası. Azərbaycanhüquqjurnalı, N 3 (10), Bakı, "Adiloğlu" nəşriyyatı 2004. s. 15

**“Təcavüzə qarşı mübarizədə beynəlxalq hüququn bəzi prinsiplərinin rolu və əhəmiyyəti”** adlanan **üçüncü paraqrafda** təcavüzün beynəlxalq hüququn güc tətbiqi, daxili işlərə qarışma, insan hüquqları və dövlətlərin ərazi bütövlüyü kimi məsələlərin tənzimləyicisi rolunda çıxış edən bəzi mühüm prinsipləri arasında qarşılıqlı əlaqə tədqiq olunur. Qeyd edilir ki, bu prinsiplər imperativ xarakterli olmaqla, digər beynəlxalq hüquq qaydalarının yaradılması üçün də hüquqi baza təşkil edir və bunlar 1945-ci il BMT Nizamnaməsində, Bynəlxalq hüququn prinsipləri haqqında 1970-ci il Bəyannaməsində, ATƏT-in 1974-cü il Helsinki Yekun Aktında, habelə Nürnberq Tribunalının Nizamnamə və qərarlarında əksini tapmış, eyni zamanda 1954 və 1996-cı illərdə Beynəlxalq Hüquq Komissiyası tərəfindən “Sulh və bəşəriyyətin təhlükəsizliyi əleyhinə cinayətlər Məcəlləsi” layihəsində[6]də bu prinsiplər sistemləşdirilərək inkişaf etdirilmişdir.

Güc tətbiq etməmək və güclə hədələməmək prinsipinin təcavüzlə sıx qarşılıqlı əlaqəsini nəzərə alaraq, beynəlxalq sənədlərə görə aşağıdakı hərəkətlər hüquqazidd hesab olunur: digər dövlətin sərhədlərini pozmaq və ya beynəlxalq mübahisələri, o cümlədən ərazi və ya sərhəd mübahisələrini həll etmək üçün güc tətbiq etmək və güc tətbiqi ilə hədələmək; silahlı güc tətbiq etməklə əvəzçıxma təzyiq tədbirləri; bir dövlətin silahlı qüvvələrinin başqa bir dövlətin limanlarını blokadaya alması; qeyri-nizami qüvvələrin və ya silahlı bandaların təşkili və ya təşkilinə dəstək verilməsi; digər dövlətin ərazisində vətəndaş müharibəsinin və yaxud terror aktlarının təşkil edilməsi, onlara yardım edilməsi və ya onlarda birbaşa iştirak edilməsi; digər dövlətin ərazisinin qeyri-qanuni güc tətbiq edilməklə işğal edilməsi; güc tətbiq etmək və ya güc tətbiqi ilə hədələməklə digər dövlətin ərazisinin ələ keçirilməsi; xalqları özünümüəyyənetmə hüququndan, azadlıq və müstəqillikdən məhrum edən zorakı hərəkətlərin törədilməsi. Vurğulanır ki, müasir beynəlxalq hüquqda təcavüz cinayəti ilə ən səmərəli mübarizə məhz güc tətbiq etməmək və güclə hədələməmək prinsipinə dövlətlər tərəfindən hamılıqla riayət edilməsidir.

Təcavüz cinayətinin birbaşa yönəldiyi qəsd obyektini dövlətlərin ərazi bütövlüyü təşkil etdiyindən, beynəlxalq hüququn əsas prinsiplərindən biri kimi dövlətlərin ərazi bütövlüyü və toxunulmazlığı prinsipinin təcavüzlə qarşılıqlı əlaqəsi tədqiq edilərək, bu prinsipin məzmununda yer

[6]UN International Law Commission: Commentary on Draft Code of Crimes against Peace and Security of Mankind, at http://www.un.org

alan üç termin – "ərazi", "bütövlük" və "toxunulmazlıq" anlayışları aydınlaşdırılır.

Adətən təcavüzkar dövlətlər öz kriminal hərəkətlərinə xalqların hüquq bərabərliyi və özünümüəyyənetmə prinsipindən sui-istifadə etməklə bəraət qazandırmağa cəhd eedir. Bunun bariz nümunəsini Ermənistanın Azərbaycana hərbi təcavüzü ilə əlaqədar görmək mümkündür.Bu səbəbdən də bu paraqrafda təcavüzlə qarşılıqlı əlaqəsinin əhəmiyyətinə görə beynəlxalq hüquqda məxsusi hüquqi məna kəsb edən prinsip kimi xalqların hüquq bərabərliyi və özünümüəyyənetmə prinsipi tədqiq olunur. Bu prinsip BMT Nizamnaməsi, Müstəmləkə ölkələrinə və xalqlarına müstəqillik verilməsi haqqında 1960-cı il Bəyannaməsi, İnsan hüquqları haqqında 1966-cı il Beynəlxalq Paktları, 1970-ci il Bəyannaməsi, Helsinki Yekun Aktı, habelə BMT Beynəlxalq Məhkəməsinin bir sıra qərar və məşvərətçi rəylərində qeyd olunan müddəalar nəzərə alınmaqla şərh olunur.

Həmçinin,bu paraqrafda təcavüzlə sıx qarşılıqlı əlaqədə olan və bəzən bu cinayətə bəraət qazandırmaq məqsədilə sui-istifadə cəhdləri ilə müşahidə edilən mühüm beynəlxalq hüquq prinsipi kimi insan hüquqlarına hörmət prinsipindən də bəhs olunur.Qeyd edilir ki, insan hüquqlarının müdafiəsi prinsipinin fəlsəfəsi məhz fərdin hüquq və azadlığını konkret dövlətin müdaxiləsindən qorumaq və onu belə pozuntudan çəkindirməkdir vəbuna görə də silahlı və qeyri-silahlı xarakterindən asılı olmayaraq, bu vəziyyətə insan hüquqları üzrə beynəlxalq müqavilələr tətbiq ediləcək. Bildirilir ki,müasir beynəlxalq münasibətlər sistemi humanitar məqsədlərlə edilən hərbi müdaxilələrlə daha zəngindir. Vurğulanır ki,son dövrlər Azərbaycan, Gürcüstan, Ukrayna, Suriya, Mali və dünyanın digər regionlarında baş verən hadisələr bu və digər şəkildə insan hüquqları, humanitar müdaxilə və təcavüzə bilavasitə aid olan məsələlərdəndir. Məsələn, BMT TŞ-nın Malidəki vəziyyətə dair 20 dekabr 2012-ci il tarixli Qətnaməsində Maliyə insanların müdafiəsi və humanitar yardım göstərilməsi məqsədilə beynəlxalq kontingentin göndərilməsi və "terrorçular, ekstremist və silahlı qruplaşmalar"a qarşı əməliyyatlara yardım etmək, habelə hərbi əməliyyatlarda birbaşa iştirak etmək tapşırılmışdır. Eyni zamanda sənəddə bildirilir ki, əməliyyatlar beynəlxalq humanitar hüquq və insan haqlarına zidd olmamalı, qoşunlar burada ilkin mərhələdə bir il müddətində qalmalıdırlar.[7] Qeyd edilir ki, Malidə hərbi əməliyyatların BMT-nin müvafiq səlahiyyətli qurumunun icazəsi və bu əməliyyatların beynəlxalq humanitar hüquq və insan haqlarına zidd

[7]Resolution 2085 (2012), http://www.un.org

olmaması şərti ilə həyata keçirlməsi təqdirəlayiq hal hesab edilməli, həmçinin müdaxilənin bir illik müddətlə məhdudlaşdırılması müasir beynəlxalq hüquqda təcavüzün istisna olunması baxımından mütərəqqi addım kimi qiymətləndirilməlidir.

**"Təcavüz və özünümüdafiə hüququ"** adlanan **dördüncü paraqrafda** silahlı gücdən istifadə ilə bağlı olduğu üçün təcavüz və özünümüdafiə hüququ arasında qarşılıqlı əlaqə problemləri tədqiq olunur. Bildirilir ki, hazırda BMT Nizamnaməsi dövlətlərin güc tətbiq etməsini beynəlxalq hüququn əsas prinsipi kimi qadağan etməklə, gücdən istifadənin hüquqauyğun olduğu halları da müəyyənləşdirmişdir. Bu cür halların hüquqi əsası kimi BMT Nizamnaməsinə istinadlar edilir.

Qeyd olunur ki, müasir beynəlxalq hüquq yalnız iki halda silahlı gücün tətbiqinə yol verir. Birincisi, özünümüdafiə zamanı – bu halda dövlət silahlı basqından özünümüdafiə məqsədi ilə fərdi qaydada və ya başqa dövlətlərlə birgə və proporsionallıq prinsipinə əməl etmək şərti ilə güc tətbiq edə bilər. Bu hərəkətlərin hüquqi əsası BMT Nizamnaməsinin 51-ci maddəsində möhkəmlənmişdir: "Bu Nizamnamənin heç bir müddəası, əgər Birləşmiş Millətlərin Üzvünə qarşı silahlı basqın baş verərsə, TŞ tərəfindən beynəlxalq sülhün və təhlükəsizliyin qorunub saxlanması üçün zəruri olan tədbirlər görülənə qədər ayrılmaz xarakter daşıyan fərdi və kollektiv özünümüdafiə hüququna xələl gətirmir".[8]İkincisi isə sülhə təhlükə, sülhün pozulması, təcavüz aktı baş verdikdə, TŞ-nin qərarına əsasən BMT Nizamnaməsinin 42-ci maddəsinə müvafiq olaraq, BMT TŞ "...hava, dəniz və ya quru qüvvələri vasitəsilə beynəlxalq sülhün və təhlükəsizliyin qorunub saxlanması və ya bərpası üçün zəruri tədbirlər görə bilər".

Paraqrafda vurğulanır ki, silahlı təcavüzə məruz qalan dövlət həm təkbaşına, həm də digər dövlətlərlə birgə və ya onların yardımı ilə özünümüdafiə hüququndan istifadə edə bilər. Bu mənada BMT Nizamnaməsi həm fərdi, həm də kollektiv özünümüdafiəni nəzərdə tutur. Kollektiv özünümüdafiə haqqında qərar silahlı hücuma məruz qalan dövlət tətəfindən qəbul olunur. Bu zaman onun xahişi olmadan üçüncü dövlətin kollektiv özünümüdafiədə iştirak etmək hüququ yoxdur. Eyni zamanda, terror hücumları zamanı dövlətin özünümüdafiə hüququ əsasında silahlı qüvvələrdən istifadə etməsi mühüm beynəlxalq hüquqi məsələlərdən biri kimi qeyd olunur, terrorçu qruplardan istifadə edilərək, dövlət ərazisinin silahlı hücuma məruz qalması faktı dolayı təcavüz hesab olunur və belə

---

[8] Charter of the United Nations - United Nations Treaty Collection, https://treaties.un.org/doc/publication/ctc/uncharter.pdf

təcavüzə görə özünümüdafiə hüququndan istifadə olunması beynəlxalq hüquqla yolverilən hal hesab edilir.

İkinci fəsil **"Təcavüz beynəlxalq cinayət kimi"** adlanır vəiki paraqrafdan ibarətdir.

**"Sülh və insanlıq əleyhinə cinayət kimi təcavüzün elementləri və formaları**" adlı **birinci paraqrafda**təcavüz cinayətinin elementləri, forma və növləri, eləcə də bunlarla sıx qarşılıqlı əlaqədə olan onun törədilmə mərhələləri fərqləndirilir.

Qeyd olunur ki, təcavüz cinayətinin elementləri ilə bağlı Beynəlxalq Cinayət Məhkəməsinin Hazırlıq Komissiyası tərəfindən 1-12 iyul 2002-ci il tarixdə qəbul olunmuş "Təcavüz Cinayətinin Elementləri" layihəsində,[9] habelə 11 iyun 2010-cu ildə Roma Statutu üzrə İcmal Konfransında (Kampala, Uqanda) edilmiş düzəlişlərə əsasən[10] dövlətlərarası razılaşma əldə olunmuş və problem öz həllini qismən də olsa tapmışdır.

Təcavüz cinayəti konkret mürəkkəb cinayətlərin uzanan cinayət növünə aid edilir. Belə ki, uzanan cinayət müəyyən cinayət tərkibini yaradan əməlin fasiləsiz olaraq törədilməsi ilə xarakterizə olunur. Belə əməli törədən subyekt isə müəyyən dövrdə kriminogenlik mənbəyinə çevirilir, yəni hər an məlum əməli törətməkdə davam edir və bu onda təhlükəli meyllərlə bağlı olur. Buna misal olaraq göstərilir ki, Ermənistan dövləti və onun rəhbər şəxsləri kriminogenlik xarakterinə malik olmaqla, 1988-ci ildən başlayaraq Azərbaycan ərazilərində təcavüz əməlini törətməkdə davam edir və bu onların təcavüzkar meylləri ilə sıx bağlıdır. Uzanan cinayət olmaqla, təcavüz dövlət və ya fərd tərəfindən beynəlxalq hüquqla qadağan edilən hərəkətin və ya hərəkətsizliyin edilməsilə başlayır. Kriminal vəziyyətə son qoyan hərəkətin edilməsilə uzanan cinayət qurtarır. Məsələn, digər dövlətin ərazisinə yeridilən qoşun oradan çıxarılır, işğal olunan və ya anneksiya edilən ərazilər onun qanuni sahibinə qaytarılır və s. Bildirilir ki, uzanan cinayət törədilən andan bitir və bitmiş cinayətə görə məsuliyyət yaranır, yəni bitmiş cinayətə görə məsuliyyət belə əmələ son qoyulan andan deyil, törədilən andan yaranır.

Paraqrafda təcavüzün aşağıdakı mərhələləri qeyd olunur: 1) təcavüz aktının törədilməsi haqqında əmrin verilməsi, 2) təcavüzkar müharibəyə açıq çağırışlar, 3) təcavüzkar müharibənin planlaşdırılması, 4)

[9] Documents on the Crime of Aggression, http://untreaty.un.org
[10] The Crime of Aggression, http://www.iccnow.org

təcavüzkar müharibənin hazırlanması, 5) müharibənin başlanması, 6) müharibənin aparılması.

Tokio və Nürnberq Tribunallarının hökmlərinə istinad olunaraq təcavüzün aşağıdakı formaları fərqləndirilir: güc hədəsi (treat of force), silahlı hücum (armed attack), müdaxilə və ya soxulma (invasion), işğal (occupation), ilhaq və ya inkorporasiya (annexation or incorporation) və müharibə (war). Təcavüzün kateqoriyalarına (növlərinə) isə aid edilir: ümumi təcavüz, təcavüz aktları, müharibə aktları, təcavüzkar müharibə aktları, təcavüz müharibələri. Bunların praktiki əhəmiyyəti onunla izah olunur ki, hansı formada həyata keçirilməsindən asılı olmayaraq əgər əməl mərhələli şəkildə və uzanan formada davam edirsə, bu sülhə və insanlığa qarşı yönəlmiş ən təhlükəli cinayət – təcavüz kimi qiymətləndirilməlidir.

**"Təcavüz cinayətinə görə beynəlxalq hüquqi məsuliyyət"** adlanan **ikinci paraqrafda** isə təcavüz cinayətinə görə həm dövlətlərin siyasi məsuliyyətindən, həm də fərdlərin cinayət məsuliyyətindən bəhs olunur. Qeyd edilir ki, digər beynəlxalq hüquq pozuntularında olduğu kimi, təcavüzdə də məsuliyyət restitusiya və reparasiya formasında nəzərdə tutulur. İraqa dair BMT TŞ-nın 29 oktyabr 1990-cı il tarixli 674 saylı Qətnaməsində bu özünün rəsmi ifadəsini tapmışdır.[11]

Hüquq üzrə fəlsəfə doktoru V. İbayev qeyd edir ki, beynəlxalq cinayətlərdə dövlətlərin iştirakı düzünə və yanakı ola bilər. Hüquq pozuntusu bilavasitə dövlət orqanları və ya həmin orqanların nümayəndələri tərəfindən törədildikdə, dövlət cinayətin bilavasitə düzünə iştirakçısı hesab olunur. Dövlət öz yurisdiksiyası hüdudunda onun aparatı ilə formal olaraq heç bir əlaqəsi olmayan fiziki şəxslər tərəfindən cinayətin törədilməsinə yol verirsə, onun cinayətdə iştirakı yanakı xarakter [12]daşıyır.

Qeyd olunur ki, təcavüzün həyata keçirilməsi zamanı konkret dövlətin bu hərəkətlərin törədilməsi ilə bağlı vahid siyasi-hərbi konsepsiyası yoxdursa, o zaman fərdin törətdiyi hərəkət və ya hərəkətsizlikdə bu cinayətin tərkibi mövcud olmayacaqdır. Yəni, fərd təkbaşına təcavüz törədə bilməz. Bu cinayətin baş verməsi üçün "dövlət-fərd əməkdaşlığı"nın mövcudluğu faktı ən zəruri element hesab olunmalıdır. Təcavüzə münasibətdə "dövlət-fərd əməkdaşlığı" məsələsinə dair dövlətlərin ümumi iradəsi Roma Statutu üzrə 2010-cu il tarixli İcmal Konfransında edilən düzəlişlərdə ifadə olunmuşdur (8 bis maddəsi). Ona

---

[11] Resolution 674 : Iraq-Kuwait (29 October 1990), https://documents-dds-ny.un.org

[12]İbayev V. Ə. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi və insan hüquqları. Dissertasiya. Bakı, 2002, s.189

görə də, dövlət “təcavüz aktına” görə maddi-siyasi məsuliyyət, fərd isə “təcavüz cinayəti”nə görə cinayət məsuliyyəti daşıyacaqdır. Təcavüz cinayətində dövlətin iştirakının təsdiqi fərdi məsuliyyət üçün də əsas kimi çıxış edir. Bildirilir ki, ilkin konstatasiya hüququnun məxsus olduğu BMT TŞ-nin dövlətin təcavüzdə iştirak faktını müəyyən etməsindən sonra bu əməldə təqsirli fərdlərin universal yurisdiksiya əsasında cəzalandırılması mümkün ola bilər.

**“Ermənistanın Azərbaycana hərbi təcavüzü müasir beynəlxalq hüquq kontekstində”** adlanan üçüncü fəsil dörd paraqrafdan ibarətdir.

**“Ermənistanın Azərbaycana hərbi təcavüzünün beynəlxalq hüquqi mahiyyəti və bəzi tarixi aspektləri”** adlı **birinci paraqrafda** respublikamızın beynəlxalq hüquqi cəhətdən xüsusilə mühüm əhəmiyyət kəsb edən problemlərindən biri Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü məsələsindən bəhs olunur.

Qeyd olunur ki, dövlətimizin xarici siyasət kursunun əsas vektorlarından və ölkəmizdə təhlükəsizlik mühitinin qorunmasına təsir edən ən zəruri amillərdən birini Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün nəticələrinin aradan qaldırılması təşkil edir və problemin hüquqi mahiyyəti və məhz bu təcavüzün cinayət hüquqi xarakteri ilə bağlı xalqımızın ümumilli lideri Heydər Əliyev dəfələrlə öz rəsmi mövqeyini bəyan etmiş, ulu öndər “Ermənistanın Azərbaycana qarşı təcavüzünü misli görünməmiş təcavüz”[13] adlandırmaqla hadisənin mahiyyətini və ictimai təhlükəli cinayət xarakterini olduqca dəqiq və konkret ifadə edərək, Ermənistan tərəfindən edilən hərbi təcavüzü problemlərdən ən böyüyü və ən çətini hesab etmişdir.[14]

Vurğulanır ki, əksəriyyət normativ-hüquqi aktlarda, KİV-də və ədəbiyyatlarda problemin Dağlıq Qarabağ “konflikti” və ya “münaqişəsi” kimi təqdim olunması baş verən hərəkət və hərəkətsizlikləri beynəlxalq hüquqi parametrlərinə görə kifayət qədər əhatə etmir və əsas mahiyyətdən yayınmağa səbəb olur. Ona görə də problemin beynəlxalq və ölkədaxili normativ-hüquqi aktlarda, KİV-də daim “Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü” şəklində təqdim olunması daha məqsədəuyğun hesab olunur.

Təcavüz, ilhaq, işğal və silahlı hücum anlayışları Ermənistanın Azərbaycana hərbi təcavüzü kontekstində araşdırılır. İlk növbədə təcavüz

---

[13] Heydər Əliyev və Şərq. 6 clddə. Birinci kitab. Tərtibçilər: Q.Allahverdiyev və V.Sultanzadə. red. M. Qurbanlı. Bakı, Çaşıoğlu, 2002. s. 85.

[14] Heydər Əliyev. Müstəqillik yollarında. IV kitab. “Azərbaycannəşriyyatı.Bakı. 1997.s.171.

və işğal hərəkətlərinin praktiki olaraq biri-birindən fərqləndirilməsi zəruri hesab edilir və bildirlir ki, hər hansı hücumun nəticəsi olan işğal hələ cinayət deyildir. Burada mütləq həmin sulahlı hücumun məhz təcavüzkar məqsədlə törədilməsi mühüm şərt sayılmalıdır. Belə ki, adi hücumun nəticəsi olan "işğal" zamanı dövlətin digər dövlətə qarşı yönələn hərəkəti "dövlət suverenliyinə qəsd" etmir və müəyyən müddət keçdikdən sonra öz qoşunlarını həmin ərazidən çıxarmaqla, yəni hücum dayandırıldıqda "işğal" bitmiş hesab olunur. Bu kontekstdə beynəlxalq hüquq tərəfindən konkret "müddətin" müəyyən olunmasının zəruriliyi bildirilir və vurğulanır ki, hucum edən silahlı birləşmələrin ərazidə qalma müddəti 1 (bir) ildən çox olmamalıdır. Müddətin bir il olması fikri irəli sürülərkən, presedent kimi Malidəki hərbi əməliyyatlar üzrə BMT Təhlükəsizlik Şurasının 2085 (2012) saylı Qərarı əsas kimi götürülə bilər. Eyni zamanda qeyd olunur ki, hər hansı humanitar və digər məqsədlərlə atılan addımlar bu zaman intervalında konkret nəticənin əldə olunmasına imkan verir və "işğal"ın uzanması təcavüzün elementlərinin meydana gəlməsinə səbəb olacaq. "Təcavüz" və "silahlı hücum" anlayışları arasında bölgünün aparılması da mühüm məsələlərdən biri kimi nəzərdən keçirilir. Təcavüz bütövlükdə sülh və beynəlxalq təhlükəsizlik əleyhinə yönələn cinayət kimi qəbul olunursa, silahlı hücum isə konkret dövlət əleyhinə yönələn akt hesab olunur. Hesab edilir ki, silahlı hücumda niyyətin fərqli olması mümkündür, lakin təcavüzdə niyyət sırf kriminal səciyyə daşımaqla dövlətin ərazi bütövlüyü və suverenliyinə qarşı yönəlir. Bildirilir ki, silahlı hücum o zaman təcavüz sayıla bilər ki, onun həyata keçirilməsində niyyət məhz təcavüzün planlaşdırılmasındakı niyyətlə üst-üstə düşsün. Digər tərəfdən, qeyd olunur ki, təcavüz zamanı beynəlxalq sülh və təhlükəsizlik təhlükəyə məruz qalırsa, silahlı hücumda yalnız bir dövlətin maraq və mənafeləri təhlükə altında qalır.

Ermənistanın Azərbaycana təcavüzü probleminin rasional həll modellərinin axtarılıb tapılması üçün məsələyə kompleks yanaşmanın tələb olunduğu qeyd edilir. Kompleks yanaşmanın mahiyyəti onunla izah olunur ki, birincisi, münaqişə lokal deyil, qlobal mahiyət daşıyır, ikincisi isə prosesin bütün mərhələləri üzrə ermənilər tərəfindən təkcə təcavüz cinayəti deyil, digər beynəlxalq cinayətlər də törədilmişdir. Ermənistanın təkcə Azərbaycana yox, Türkiyə, Gürcüstan və s. dövlətlərə qarşı ərazi iddiaları, eləcə də bu ölkələrin əhalisinə, təbii, mədəni və tarixi abidələrinə qarşı diskriminasiya və zorakılıq hərəkətləri həyata keçirdiyi və bu faktın bir dövlətin deyil, bütövlükdə beynəlxalq sülhün və təhlükəsizliyin pozulması üçün təhdid yaratdığı qeyd olunur. Maddi hüquqi məsuliyyətə münasibətdə

qeyd olunur ki, maddi zərərin vurulması ilə əlaqədar əvəzin ödənilməsi barədə xüsusi tələb irəli sürülməli, habelə təcavüz qurbanlarına kompensasiyanın mümkünlüyü diqqətdə saxlanılmalıdır. Ermənistanın törətdiyi kompleks cinayətlərə görə müasir beynəlxalq hüquqa əsasən*ad hoc* Beynəlxalq Tribunalın formalaşdırılması əsaslandırılır.

**"Beynəlxalq və regional təşkilatların Ermənistanın Azərbaycana hərbi təcavüzü ilə bağlı mövqeyi: hüquqi təhlil"** adlı **ikinci paraqrafda** Ermənistanın Azərbaycana hərbi təcavüzü universal və regional təşkilatların – BMT, Avropa İttifaqı, Avropa Şurası, NATO, ATƏT, İslam Əməkdaşlıq Təşkilatı və digər transmilli qurumların qəbul etdiyi beynəlxalq hüquqi sənədlər kontekstində araşdırılır. BMT Təhlükəsizlik Şurasının (TŞ)Dağlıq Qarabağ və onun ətraf rayonlarına dair qəbul etdiyi dörd qətnamə müasir beynəlxalq hüququn norma və prinsipləri baxımından şərh olunur və hesab edilir ki, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü ilə bağlı TŞ-nin qətnamələrinin qəbulolunma proseduru onların hüquqi məcburetmə qüvvəsini istisna edir. Vurğulanır ki, bu qətnamələr BMT Nizamnaməsinin VII fəslinə, yəni "Sülhə təhlükə, sülhün pozulması və təcavüz aktları ilə bağlı tədbirlər" fəslinə uyğun deyil, VI – "Mübahisələrin dinc yolla həll olunması" fəslinə müvafiq olaraq çıxarılmış, qətnamələrin yönələ biləcəyi beynəlxalq hüquqi subyekt isə qeyri-müəyyən olaraq qalır və belə olan halda TŞ təcavüzkara münasibətdə məcburi əməliyyatların icrası və aparılmasını tələb etmək imkanından hüquqi cəhətdən məhrum olur.

Bu paraqrafda müəllif AŞ-nın Ermənistanın Azərbaycana hərbi təcavüzü ilə bağlı mövqeyini ölkəmizin milli maraqları və ərazi bütövlüyü prizmasından olduqca əhəmiyyətli sayaraq, aşağıdakı nəticələri mümkün hesab edir: AŞ Avropa qurumlarından yeganə təşkilatdır ki, öz qətnaməsində Ermənistanı təcavüzkar adlandırmışdır; [15] bu təcavüz faktına reaksiya verən ilk regional təşkilat da məhz AŞ olmuşdur; Avropa Məhkəməsinin insan hüquqları, özünütəyinetmə və ərazi bütövlüyü prinsipləri ilə bağlı qəbul etdiyi qərarlar ölkəmizə qarşı törədilən təcavüzlə mübarizə, qaçqın və məcburi köçkünlərin haqlarının qorunması, habelə separatizimin qarşısının alınması üzrə mühüm hüquqi nəticələrin əldə edilməsinə imkan verir.

Qeyd edilir ki, NATO ilə əməkdaşlıq və respublikamızın bu alyansa gələcək inteqrasiyası Ermənistanın Azərbaycana hərbi təcavüzü

[15]Resolution 1416 (2005). The conflict over the Nagorno-Karabakh region dealt with by the OSCE Minsk Conference. http://assembly.coe.int

probleminin həllinə yardımçı ola bilər. Burada iki mühüm faktorun ön planda çıxış etməsi qeyd olunur: birincisi, Qərb təhlükəsizlik sisteminə inteqrasiyanın mahiyyətində ərazi bütövlüyünü pozmayan, dövlətin siyasi iradəsini zorlamayan amil prioritet olmalıdır; ikincisi, ərazi bütövlüyünün hüdudlarında hansısa milli və etnik qrupun aqressiv iddiaları deyil, insan faktoru və ya insan hüquq və azadlıqlarının təminatı məsələsi öndə dayanmalıdır.

Tədqiqat işində bildirilir ki, İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Azərbaycan ərazilərinə təcavüzü pisləyən 1993-cü il tarixli qətnaməsi ilə ilk dəfə Ermənistan dövlət olaraq "təcavüzkar" elan olunmuş, bununla da İƏT "Azərbaycan Republikasına qarşı Ermənistanın təcavüzü" faktını ilk təsdiq edən regional təşkilat kimi tarixə düşmüşdür. Qətnamədə beynəlxalq hüquqi mahiyyəti ilə seçilən iki mühüm məsələ - "ermənilərin son təñavüzünün beynəlxalq sülh və təhlükəsizlik üçün təhlükə yaratması" və problemin həllinin məhz beynəlxalq hüququn "ərazi bütövlüyü" və "sərhədlərin toxunulmazlığı" prinsiplərinə əsasən həlli önə çəkilmişdir. Qətnamənin 5-ci bəndində Azərbaycanın "özünümüdafiə" hüququ təsdiq edilir və bu istiqamətli bütün cəhdlərin dəstəkləndiyi bildirilir.

Qeyd olunur ki, Avropa İttifaqı (Aİ) Cənubi Qafqazdakı münaqişələrə, o cümlədən Dağlıq Qarabağ probleminə daha çox nüfuz etmək kursunu əsas götürmüşdür. Bu həm beynəlxalq hüquq, həm də geosiyasi baxımdan müsbət nəticələr verə bilər. Müəllif qeyd edir ki, Aİ-nin münaqişələrin, xüsusilə DQ probleminin həll edilməsinə olan marağının əsas səbəbi odur ki, son illərdə qurumun sərhədləri bu regiona daha çox yaxınlaşmış, Aİ Avropa Qonşuluq Siyasəti (AQS) və Şərq Tərəfdaşlığı proqramları çərçivəsində tərəflər arasında qarşılıqlı inamın yaranmasına kömək göstərməyə hazır olduğunu dəfələrlə bəyan etmişdir.

**"Beynəlxalq məhkəmə instansiyaları və Ermənistanın Azərbaycana hərbi təcavüzü cinayəti"** adlanan **üçüncü paraqraf**"BMT-nin Beynəlxalq Məhkəməsinin təcavüzlə bağlı bəzi presedentləri" və "Beynəlxalq Cinayət Məhkəməsinin təcavüzə dair yurisdiksiyası" adlı iki yarımparaqrafdan ibarətdir.

BMT Beynəlxalq Məhkəməsinin presedentləri kontekstində Ermənistanın Azərbaycana təcavüzünə dair qeyd olunur ki, birincisi, *Nikaraqua işində* olduğu kimi, bu işə Nizamnamənin VI fəslinin müddəalarına müvafiq deyil, VII fəslinin müddəalarına uyğun olaraq baxıla

bilər;[16] ikincisi, *“Konqoda hərbi əməliyyatlar” işinin* məntiqinə müvafiq olaraq, TŞ-nin Dağlıq Qarabağa dair dörd qətnaməsinin icrası təmin olunmalı, müvəqqəti tədbirlərin görülməsi, habelə Ermənistan silahlı qüvvələrinin Dağlıq Qarabağdan çıxarılması ilə bağlı konkret tələblərin irəli sürülməsi də mümkün təkilflərdəndir.

Hesab edilir ki, təcavüz cinayətinin hüquqi çərçivəyə salınması hazırda beynəlxalq hüququn problemli və mühüm məslələrindən biri olaraq qalmaqdadır. BCM-in Statutunun 5-ci maddəsinin 1(d) bəndinə əsasən təcavüz Məhkəmənin yurisdiksiyasına düşən cinayətlərdəndir. Məhkəmə tərəfindən təcavüzə münasibətdə yurisdiksiyanın bu cinayətin anlayışının və Məhkəmənin bu cinayət üzrə yurisdiksiya şərtlərinin müəyyən olunmasından sonra həyata keçiriləcəyi qeyd edilmişdir. Bu məsələ 11 iyun 2010-cu il tarixdə Roma Statutu üzrə İcmal Konfransında (Kampala, Uqanda) iki həftəlik gərgin müzakirələrdən və bir illik hazırlıq işlərindən sonra ümumi razılıq əsasında Statuta təcavüzün anlayışının müəyyən olunması və Məhkəmənin bu cinayətə görə yurisdiksiyasının həyata keçirilməsi qaydalarını özündə ehtiva edən düzəlişlərin (8 bis, 15 bis və 15 ter maddələri) qəbul edilməsi ilə öz həllini qismən tapmışdır. Kampalada qərara alınmış düzəlişlərin qüvvəyə minmə şərtlərinə görə, Məhkəmə 1 yanvar 2017-ci il tarixədək təcavüz cinayəti üzrə öz yurisdiksiyasını bu barədə İştirakçı Dövlətlər tərəfindən qərar qəbul edilənə qədər həyata keçirə bilməz.

Beynəlxalq cinayətlərin ən təhlükəli növləri ilə mübarizə sahəsində ölkəmizin beynəlxalq əməkdaşlığının genişləndirilməsi və müvafiq normativ-hüquqi bazanın təkmilləşdirilməsi məqsədilə BCM-nin Statutunun Azərbaycan Respublikası tərəfindən ratifikasiyası və AR CM-nin müvafiq maddələrinin bu Statuta uyğunlaşdırılması gələcəkdə məqbul hesab olunur.

Qeyd olunur ki, Ermənistanın Azərbaycana təcavüzü probleminin həllinin ən optimal yollarından biri BMT TŞ-də və Beynəlxalq Cinayət Məhkəməsində siyasi-hüquqi nüansların sintezi formatıdır. Bu, iki mühüm səbəbə görə zəruri hesab edilir: birincisi, hər hansı bir qərar çıxarılarkən ilk növbədə onun siyasi kökləri və səbəblərinin dərindən araşdırılması mümkün olacaq, ikincisi isə konkret beynəlxalq cinayət kimi təcavüzə - sülh və bəşəriyyətin təhlükəsizliyinin pozulmasına görə beynəlxalq hüquqi məsuliyyət məsələsi öz həllini tapacaqdır. Çünki, müasir beynəlxalq

---

[16]Military and Paramilitary Activities in and against Nicaragua (Nicaragua v. United States of America), Jurisdiction and Admissibility, Judgment, I.C.J. Report 1986, p. 434

hüquqda təcavüz yeganə cinayət hesab olunur ki, o həm siyasi, həm də hüquqi mahiyyəti ilə seçilir.

**"Azərbaycan Respublikasının özünümüdafiə hüququ və müasir beynəlxalq hüquq"** adlanan **dördüncü paraqrafda** isə qeyd olunur ki, Dağlıq Qarabağda və onun ətraf rayonlarında baş verən faktlara münasibətdə – təcavüzə görə kollektiv və fərdi özünümüdafiə, insan və vətəndaşların hüquq və azadlıqlarının pozulmasına görə humanitar müdaxilə və əks tədbirlər, terror aktlarının baş verməsinə və belə fəaliyyətə Ermənistan tərəfindən dövlət dəstəyi verilməsinə görə antiterror əməliyyatlarının aparılmasına beynəlxalq hüquq qanuni əsaslarla tam imkan yaradır. Bildirilir ki, özünümüdafiənin hər hansı formasının (kollektiv və ya fərdi) seçilməsi ərazi bütövlüyünün bərpası baxımından Azərbaycan üçün xüsusi əhəmiyyət kəsb edən əsas amillərdən biri kimi çıxış edir.

Hesab olunur ki, Azərbaycan üçün kollektiv özünümüdafiənin seçilməsi daha məqsəduyğun olardı. Birincisi ona görə ki, Ermənistanın təcavüzünün kriminal nəticələri təkcə ölkəmizin deyil, regionun digər dövlətlərinin də maraqlarını pozmuşdur. İkincisi, Türkiyənin 2008-ci ilin əvvəllərində Şimali İraqa daxil olması bir daha sübut etdi ki, təkbaşına özünümüdafiə və antiterror əməliyyatları bəzən son məqsədin əldə olunmasına qədər beynəlxalq ictimaiyyətin məsələyə qarışması ilə nəticələnir. Kollektiv əməliyyatlarda isə belə vəziyyətlərin yaranma ehtimalı çox azdır. Üçüncüsü isə fərdi əməliyyatlarda təcavüzün "beynəlxalq təhlükəlilik dərəcəsini", eləcə də universal mənada sülh və təhlükəsizlik üçün təhdid olduğunu beynəlxalq birliyə anlatmaq və inandırmaq bir qədər çətin başa gəlir. Bildirilir ki, kollektiv özünümüdafiə haqqında qərar silahlı hücuma məruz qalan dövlət tərəfindən qəbul olunduğundan bu zaman Azərbaycanın xahişi olmadan üçüncü dövlətin kollektiv özünümüdafiədə iştirak etmək hüququ yoxdur. Lakin burada bir şərt var ki, beynəlxalq sülhün və təhlükəsizliyin qorunması üçün TŞ tərəfindən zəruri tədbirlər görülməsin. Müəllifin qənaətincə, Ermənistanın təcavüz hərəkətlərinə görə TŞ tərəfindən indiyə qədər heç bir zəruri əməliyyatın aparılmadığı nəzərə alınarsa, Azərbaycan bu məsələdə maraqlı dövlətlərlə kollektiv özünümüdafiə haqqında müqavilə imzalaya bilər. Q.V.Şarmazanaşvilinin qeyd etdiyi kimi, kollektiv özünümüdafiənin hüquqi məzmununun əhəmiyyətli cəhəti dövlətlərin ikitərəfli və çoxtərəfli saziş və ya silahlı hücum zamanı qarşılıqlı yardım haqqında müqavilə

bağlamaq imkanı əldə etməsindən ibarətdir.[17] Bu zaman müqavilənin subyekti hesab olunan hər hansı bir dövlətə qarşı yönələn həmlə bütün digər içtirakçılara qarşı yönələn hücum hesab olunur və onların üzərinə təcavüz qurbanına kömək göstərmək öhdəliyini qoyur.

Belə qənaətə gəlinir ki, hazırki situasiyada, xüsusilə 2016-cı ilin aprelində özünümüdafiə məqsədilə aparılan hərbi əməliyyatlar Azərbaycan Respublikasının Ermənistanın silahlı təcavüzündən özünümdafiə hüququ kimi müasir beynəlxalq hüquqla yol verilən real imkan hesab olunur. Azərbaycanın özünümüdafiə hüququndan həm fərdi, həm də kollektiv şəkildə - digər maraqlı dövlətlərlə birgə və ya onların yardımından istifadə etməklə yararlana bilməsi vəbu kontekstdə Azərbaycan üçün xüsusilə kollektiv özünümüdafiənin seçilməsi daha məqsədəuyğun hesab edilir. Əsaslandırılır ki, Ermənistanın təcavüz hərəkətlərinin kriminal nəticələri təkcə Azərbaycanın deyil, bütövlükdə Cənubi Qafqaz regionu və Avropada inteqrasiya proseslərində maraqlı olan ölkələrin mənafelərinə toxunaraq başqa dövlətlərin də siyasi və iqtisadi təhlükəsizlik maraqlarını pozmuşdur. Digər tərəfdən, Azərbaycan üçün ən məqbul həll variantlarından biri kimi antiterror əməliyyatlarının aparılması da əhəmiyyətli hesab edilir.

**Nəticə** hissəsində, bir sıra əsas elmi nəticələr və praktiki əhəmiyyət kəsb edən təkliflər təqdim olunur, onlardan bəziləri bu avtoreferatın mətnində əksini tapmışdır.

**Dissertasiya tədqiqatı ilə əlaqədar müəllif tərəfindən aşağıdakı elmi əsərlər çap edilmişdir:**


1. Qloballlaşma və təcavüz: proqlobalizm və antiqlobalizm aspektindən beynəlxalq təhlükəsizlik məsələləri // Beynəlxalq hüquq və inteqrasiya problemləri. 2006, № 4 (08), s. 138-143.

2. Təcavüz cinayətinə görə fərdi məsuliyyət // Məhkəmə ekspertizası, kriminalistika və kriminologiyanın aktual məsələləri. 2010, № 52, s.152-158.

3. Преступления агрессии в контексте глобализации и интеграционных процессов. // «Этносоциум и межнациональная культура». Москва, 2012, № 1 (43)1. с.105-113.

4. Определение агрессии как проблема современного международного права //«Современные проблемы юридической науки». Часть II. Материалы VII Международной научно-


[17] Шармазанашвили Г.В. Самооборона в международном праве: Учебное пособие. М.: Ун-т дружбы народов им. Патриса Лумумбы, 1973. с. 45

практической конференции молодых исследователей. Челябинск, Южно-Уральский государственный университет, 2011, с.121-122.

5. Преступления агрессии в контексте глобализации // Вестник КазНУ. Казахский Национальный Университет имени Аль-Фараби. Серия юридическая. 2013, №4 (68), с.192-198.

6. Sülh və bəşəriyyətin təhlükəsizliyi əleyhinə cinayət kimi təcavüzün elementləri və formaları // Məhkəmə ekspertizası, kriminalistika və kriminologiyanın aktual məsələləri. 2012, № 56, s.168-177.

7. Ermənistanın hərbi təcavüzü türk dünyasının informasiya təhlükəsizliyi kontekstində // IV Beynəlxalq Türk Dünyası Araşdırmaları Simpoziumu Məruzələr Kitabı, Türkiyə, Niğde. 26-28 aprel 2017-ci il.s. 869-874.

8. Ermənistanın Azərbaycana təcavüzü kontekstində beynəlxalq hüquqi məsuliyyətin bəzi məsələləri // Ulu Öndər Heydər Əliyevin ad gününə həsr olunmuş "Hüquq elminin və təhsilinin müasir problemləri və həlli yolları" adlı Beynəlxalq Konfransın Materialları, II hissə, Bakı 2011. AMEA Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu.səh.256-262.

9. The Crime of Aggression from the point of view of Globalization and European Integration //Dirçəliş -XXI əsr. № 164-165/yanvar-fevral 2012. AMEA Azərbaycan Dövlət Quruculuğu və Beynəlxalq Münasibətlər İnstitunun elmi nəşri. səh.369-376.

## SUMMARY

The dissertation presented by SayyadTofigogluMajidov for the degree of Doctor of Philosophy in law on specialty of 5603.01 – "International law; human rights" on the topic"The Factor of Aggression in the System of International Relations" is devoted to a complex analysis the problem of aggression in the context of realities of the system of modern international relations and norms of international law.

The dissertation consists of introduction, three chapters, conclusion and bibliography.

Chapter I of the dissertation is devoted to thehistory and modern situation of the problem of conception of aggression and issues of international security from the aspects of pro-globalism and anti-globalism, role and importance of some principles of international law in the context of fight against crime of aggression and mutual connection of the aggression and self-defense.

Chapter II is devoted to the elements and forms of the aggression as a crime of against peace and humanness and the issues of international law responsibility for this crime, as well as distinguished the stages of this crime which related to these and is investigated the necessary objective and subjective elements for involving to the responsibility of the subjects which committed this offence.

In Chapter IIIis devoted the military aggression of Armenia against Azerbaijan and international law norms, and are investigated the essence and important aspects of the problem. The position of international and regional organizations on the military aggression of Armenia against Azerbaijan and the perspectives of proceedings crime of Armenian military aggression in international court instances and self-defense of our country are analyzed.

Proposals to amend legislation and to improve practice as far as dealing with crime of aggression have been formulated in the conclusion of the dissertation.

9 articles deriving from the dissertation were published.

# РЕЗЮМЕ

ПредставленнаяСаядом Тофик оглы Меджидовым диссертация на соискание ученой степени доктора философии по праву по специальности 5603.01 – «Международное право; права человека» на тему «Фактор агрессия в системе международных отношений» посвящена комплексному исследованию проблемы агрессии в контексте реалий современной системы международных отношений и норм международного права.

Диссертация состоит из введения, трех глав, заключения и списка использованной литературы.

В первой главе затрагивается история и современное состояние проблемы определения агрессии, говориться о вопросах международной безопасности в аспекте проглобализма и антиглобализма, роли и важности некоторых принципов международного права в борьбе с агрессией, а также о взаимной связи агрессии и право на самооборону

Во второй главе говориться об элементах и формах агрессии в качестве преступления против мира и человечности, также о вопросах международной юридической ответственности за это преступление, разграничены элементы и формы преступления агрессии, также тесно связанные с ним этапы его совершения, исследованы объективные и субъективные признаки необходимые для привлечения к ответственности субъектов, совершивших это правонарушение.

Третья глава посвящена военной агрессии Армении против Азербайджана и норм международного права, исследуются сущность и важные аспекты проблемы. Проанализированы позиция международных и региональных организаций в связи с военной агрессии Армении против Азербайджана, перспективы рассмотрения в международных судебных инстанциях (Международный суд ООН юстиции и Международный уголовный суд) преступления военной агрессии Армении, а также право на самооборону нашей страны.

В заключении диссертации нашли свое отражение теоретические и практические вопросы в отношении преступления агрессии, в том числе дополнения и изменения в законодательстве. Опубликовано 9 статей, связанных с диссертацией.

Çapa imzalanmışdır: 26.02.2018
Kağız formatı: 60x84 1/16
Həcmi: 2 f.ç.v. Tiraj: 100

“Ədliyyə Nəşriyyat Evi” MMC,
Bakı, Xaqani küç., 14
Tel.: (+994 12) 598-26-77; 498-55-69

**МИНИСТЕРСТВО ОВРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

***На правах рукописи***

**САЯДТОФИКоглыМЕДЖИДОВ**

# ФАКТОР АГРЕССИЯ В СИСТЕМЕ МЕЖДУНАРОДНЫХ ОТНОШЕНИЙ

**5603.01 – "Международное право; права человека"**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание ученой степени**
**доктора философии по праву**

**Баку – 2018**